**Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi**
**Lənkəran Dövlət Universiteti**

"Təsdiq edirəm"
Tədris məsələləri üzrə prorektor v.i.e:
____________ dos. Zaur Məmmədov
"12" fevral 2026-cı il

## Fənn sillabusu

**İxtisasın şifri və adı:** 6001021-Təhsildə sosial-psixoloji xidmət ( A+B)

**Fakültə**: Filologiya və ibtidai təhsil

**Kafedra:** Pedaqogika, psixologiya və incəsənət

**I.Fənn haqqında məlumat**:

**Fənnin adı**: Klinik psixolagiya

**Fənn proqramı:** Azərbaycan Respublikası Təhsil Nazirliyinin 10.12.2019-cu il tarixli F-720 № -li əmrə əsasən təsdiq edilmişdir

**Kodu:** İPF-B11

**Tədris ili:** III (2025-2026) semestr: VI

**Tədris yükü:** Cəmi: 150 saat, Auditoriya saatı- 45 (30 saat mühazirə, 15 saat seminar)

**Təhsilalma forması:** Əyani

**Tədris dili:** Azərbaycan dili

**AKTS üzrə kredit:** 5 kredit

**II. Müəllim haqqında məlumat:**

**Soyadı, adı, ata adı, dərəcəsi və elmi adı:** Ph.D. dos. Verdiyeva Ləman Əşrəf qızı

**E-mail ünvanı:** leman.verdiyeva@mail. ru

**Məsləhət günləri və saatı:** 1 ci gün saat 14.00-16.00

**Kafedranın ünvanı**: Lənkəran ş. Ə.Məmmədov k.19. LDU-nun 2 saylı binası

**III.Tövsiyə olunan dərsliklər və dərs vəsaitləri:**

**Əsas:**

1. Bayramov Ə.S. Şəxsiyyətin təşəkkülünün aktual psixoloji problemləri, Bakı, 1981.
2. Bayramov Ə.S.,Əlizadə Ə.Ə.,Seyidov İ.Ə.Məhkəmə psixologiyası məsələləri,ADU, 1985.
3. İsmayılov N.V.İsmayılov F.N.Tibbi psixologiya və psixoterapiya.Bakı, 2008.
4. İsmayılov N.V.,İsmayılov F.N. Tibbi psixologiya və psixoterapiya2-ci nəşr, Bakı, 2008.
5. Şəfiyeva E.İ. Klinik psixologiya. BDU nəşriyyatı, 2002
6. İsmayılov N.V., İsmayılov F.N. Tibbi psixologiya və psixoterapiya. Bakı, 2008

**Əlavə:**

7. Hacıyev F. Yaş fiziologiyası və məktəb gigiyenası. Bakı, "Maarif", 1992
8. Şəfiyeva E.İ.Uşaqlarda anomal psixi inkişaf. Bakı, 1977

**IV. Prerekvizitlər:**Fənnin tədrisinnən öncə hər hansı fənnin tədrisinə zərurət yoxdur.

**V. Korekvizitlər:**Fənnin tədrisi ilə eyni vaxtda digər fənlərin də tədris olunmasına zərurət yoxdur.

**VI. Fənnin təsviri və məqsədi:**

Klinik psixologiya kursu "Pedaqogika, psixologiya və incəsənət fənləri" kafedrası nəzdində pedaqoji yönümlü ixtisasların tədris planı çərçivəsində işlənmişdir. Tədris planına uyğun olaraq kurs bakalavr səviyyəsinin tələbələri üçün müstəqil fənn kimi tədris olunur. Kursun

tədrisi III tədris ilinin 6 semestrində 45 saat həcmində (30 saat mühazirə, 15 saat seminar) nəzərdə tutulur.

Kursun tədrisində ilk növbədə klinik psixologiyanın tədrisinin metodoloji yolları, mövzusu, vəzifələri, əsas problemləri, ayrı-ayrı bölmələri barədə izahlar verilir. Klinik psixologiyada şəxsiyyətin psixi proseslərinin rolu, psixopotoloji sindromları,somatik və digər xəstəliklərin insan psixikasına təsiri, depresiya,stress,aqressivlik kimi müxtəlif davranışlara malik olan insanlarla görüləcək işin təşkili barədə müvafiq biliklər çatdırılır. Həmçinin insan həyatının bütün cəhətlərini: əmək fəaliyyətini, istirahətini, adamlar arasında ünsiyyəti və.s.-ni daima müşayiət edən, onun əxlaqi davranışına təsir göstərən proses olub müxtəlif qıcıqlara qarşı orqanizmin mürəkkəb psixofizioloji reaksiyaları əhatəli şəkildə öyrədiləcək.

**VII Davamiyyətə verilən tələblər:**

Fənn üzrə semestr ərzində buraxılmış auditoriya saatlarının ümumi sayı Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarına uyğun olaraq davamiyyət meyarları nəzərə alınmaqla müəyyən olunmuş həddən yuxarı olduğu halda tələbə həmin fəndən imtahana buraxılmır, onun həmin fənn üzrə akademik borcu qalır

**VIII Qiymətləndirmə:** Fənn üzrə tələbələrin biliyi 100 ballı sistemlə qiymətləndirilir. Yəni tələbələrin fənn üzrə toplaya biləcəyi balın maksimum miqdarı 100-ə bərabərdir. Bu balın yarısı ( 50 balı) tələbənin semestr müddətində fəaliyyətinin nəticəsinə (cari qiymətləndirmə), digər yarısı isə (digər 50 balı) imtahanın nəticəsinə görə verilir.

Fənn üzrə cari qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 bala aşağıdakılar daxildir:

- 20 bal - seminar dərslərində fəaliyyətinə görə;
- 30 bal - kollokviumların nəticələrinə görə.

Qiymətləndirmə zamanı LDU-nun Elmi Şuranın 16 may 2024-cü il tarixli qərarina uyğun olaraq qiymətləndirmə meyarları nəzər alınır.

İmtahanda qazanılan balların maksimum miqdarı 50-dir. İmtahan yazılı şəkildə aparılır və imtahan biletinə bir qayda olaraq fənn üzrə tədris olunan mövzulara aid 5 sual daxil edilir. Hər sual maksimum 10 bal olmaqla qiymətləndirilir (aşağıda qeyd olunan qiymət meyarına əsasən) ki, bu da toplamda fənn üzrə aralıq qiymətləndirmənin nəticəsinə görə verilən maksimum 50 balı təşkil edir.

Qiymət meyarları aşağıdakılardır:

*-10 bal- tələbə keçilmiş materialı dərindən başa düşür, cavabı dəqiq və hərtərəflidir.*

*-9 bal-tələbə keçilmiş materialı tam başa düşür, cavabı dəqiqdir və mövzunun mətnini tam aça bilir.*

*-8 bal-tələbə cavabında ümumi xarakterli bəzi qüsurlara yol verir;*

*-7 bal- tələbə keçilmiş materialı başa düşür, lakin nəzəri cəhətdən bəzi məsələləri əsaslandıra bilmir*

*-6 bal- tələbənin cavabı əsasən düzgündür.*

*-5 bal-tələbənin cavabında çatışmazlıqlar var, mövzunu tam əhatə edə bilmir.*

*-4 bal- tələbənin cavabı qismən doğrudur, lakin mövzunu izah edərkən bəzi səhvlərə yol verir;*

*- 3 bal- tələbənin mövzudan xəbəri var, lakin fikrini əsaslandıra bilmir;*

*- 1-2 bal- tələbənin mövzudan* qismən xəbəri var.

-0 bal- suala cavab yoxdur.

Tələbənin imtahanda topladığı balın miqdarı 17-dən az olmamalıdır. Əks təqdirdə tələbənin imtahan göstəriciləri semester ərzində tədris fəaliyyəti nəticəsində topladığı bala əlavə olunmur.

Semestr nəticəsinə görə yekun qiymətləndirmə (imtahan və imtahanaqədərki ballar əsasında)

| № | Bal | Qiymət | |
|---|---|---|---|
| | | Sözlə | Hərflə |
| 1. | 91-100 | əla | A |
| 2. | 81-90 | çox yaxşı | B |
| 3. | 71-80 | yaxşı | C |
| 4. | 61-70 | kafi | D |
| 5. | 51-60 | qənaətbəxş | E |
| 6. | 50 və ondan aşağı | qeyri-kafi | F |

**IX. Davranış qaydalarının pozulması:**
Tələbə Universitetin Daxili intizam qaydalarını pozduqda onun barəsində mövcud qanunvericilik çərçivəsində müvafiq tədbir görüləcəkdir.

**X.Təqvim-mövzu planı:** Auditoriya saatı 45 (30 saat mühazirə, 15 saat seminar)

| N | Mühazirə mövzuları | Saat | Tarix |
|---|---|---|---|
| | | **Mühazirə** | |
| 1 | **Mövzu. Klinik psixologiyanın bir elm kimi formalaşması**<br>**Plan:**<br>**1**. Klinik psixologiyanın bir elm sahəsi kimi yaranma tarixi<br>**2.** Klinik psixologiyanın tədqiqat metodları<br>**3**.Klinik psixologiyanın digər elmlərlə qarşılıqlı əlaqəsi<br>**4.** Kliniki müayinə metodları<br>**Mənbə: (1, 2,3,4,5, 6)** | 2 | |
| 2 | **Mövzu. Klinik psixologiyanın strukturu və əsas vəzifələri**<br>**Plan:**<br>1. Klinik psixologiyanın strukturu və onun əsas sahələri<br>2. Neyropsixologiya və patopsixologiya<br>**3.** Klinik psixologiyanın vəzifələri<br>**Mənbə: (1, 2,3,4,5,6)** | 2 | |
| 3 | **Mövzu. Klinik psixologiyanın əsas nəzəri problemləri**<br>**Plan:**<br>1. Sağlamlıq və xəstəliyin psixoloji aspektlərin təhlili<br>2. Ali psixi funksiyalar<br>**Mənbə: (1, 2,3,4,5,6)** | 2 | |
| 4 | Mövzu. **Duyğu, qavrayış və diqqət pozuntularının patopsixoloji səciyyəsi**<br>**Plan:**<br>1. Duyğu pozuntuları<br>2. Qavrayış pozuntuları<br>3. Diqqətin pozuntuları<br>**Mənbə: (1, 2, 3,6,7)** | 2 | |
| 5 | Mövzu. **Hafizə və intellekt pozuntularının patopsixoloji səciyyəsi**<br>**Plan:**<br>1. Müxtəlif sinir-psixi xəstəliklər zamanı hafizə pozuntuları<br>2. Hafizə pozuntularının rast gəlindiyi əsas xəstəliklər<br>3. Anadangəlmə və qazanılmış intellekt pozuntuları<br>4. İntellekt pozuntularının təsnifatı<br>**Mənbə: (1, 2, 6, 7)** | 2 | |
| 6 | Mövzu. **Təfəkkür pozuntularının patopsixoloji səciyyəsi** | 2 | |

| | | | |
|---|---|---|---|
| | **Plan:**<br>1. Təfəkkür pozulmalarının əsas simptomları<br>2. Təfəkkürün formaca pozuntuları<br>3. Təfəkkürün məzmunca pozuntuları<br>**Mənbə: (1, 2, 6, 8)** | | |
| 27 | **Mövzu. Emosional-iradi proseslərin pozulmalarının patopsixoloji səciyyəsi**<br>**Plan:**<br>1. Emosional pozuntuların formaları<br>2. İradənin pozulması<br>3. Hərəkət sferasının pozulması<br>**Mənbə: (1, 2, 4,6, )** | 2 | |
| 8 | **Mövzu. Meyl və yuxu pozuntularının patopsixoloji səciyyəsi**<br>**Plan:**<br>1. Meyllərin pozuntusu<br>2. Qidalanma meylinin pozuntusu<br>3. Cinsi meylin pozuntusu<br>4. Yuxu meylinin pozuntuları<br>5. İmpulsiv meyllər<br>**Mənbə: (1, 2, 6, 9)** | 2 | |
| 9 | **Mövzu. Düşüncə pozuntularının patopsixoloji səciyyəsi**<br>**Plan:**<br>1. Düşüncə pozuntularının simptomları haqqında anlayış<br>2. Düçüncənin kəmiyyət və keyfiyyət pozuntuları<br>3. Amensiya düşüncənin dərin pozuntusu kimi<br>**Mənbə: (1, 2, 3,4 )** | 2 | |
| 10 | **Mövzu. Şəxsiyyət pozuntularının patopsixoloji səciyyəsi**<br>**Plan:**<br>1. Şəxsiyyətin dəyişməsi sindromları və onların klinik təsviri<br>2. Psixopatiyalar<br>3. Şizofreniya zamanı şəxsiyyət pozuntuları<br>4. Nevrozlar psixogen xəstəlik kimi<br>**Mənbə: (1, 2, 3,4, 5)** | 2 | |
| 11 | **Mövzu. Depresiya**<br>**Plan:**<br>1. Depresiya psixi xəstəlik kimi və depresiyanın formaları<br>2. Depresiyanı xarakterizə edən əsas əlamətlər<br>3. Depresiyanın yaranma səbəbləri<br>**Mənbə: (1, 2, 3,4)** | 2 | |
| 12 | **Mövzu. Psixi sağlamlıq meyarları və səviyyələri**<br>**Plan:**<br>1. Psixi sağlamlıq anlayışı<br>2. Şəxsiyyətin psixi sağlamlığının məruz qaldığı təsirlər<br>3. Psixi pozğunluqları şərtləndirən amillər və nəticələri<br>**Mənbə: (1, 2, 4,6,8)** | 2 | |
| 13 | **Mövzu. Klinik psixologiyanın yaş problemləri**<br>**Plan:**<br>1. Uşaqlarda anomal psixi inkişaf<br>2. Ahıl yaş dövrünün və qocalığın tibbi-psixoloji xüsusiyyətləri<br>3. Gerontologiyanın öyrəndiyi əsas problemlər | 2 | |

| | | | |
|---|---|---|---|
| | **Mənbə:** (1, 2, 6,7) | | |
| 14 | **Mövzu: Kliniki müsahibələr və onlarin aparilmasina verilən tələblər**<br>**Plan:**<br>**1**. Kliniki müsahibə klinik psixoloqun iş metodlarından biri kimi<br>**2.** Klinik müsahibəyə verilən tələblər<br>**3.** Klinik müsahibə zamanı yaranan terapevtik münasibətlər<br>**4**. Uşaq və yeniyetmələrlə kliniki müsahibələrin aparılması<br>**5**. Klinik müsahibə zamanı meydana çıxan çətinliklər<br>**Mənbə: (1, 2, 3, 6, 7)** | 2 | |
| 15 | **Mövzu :Psixoterapiyanın, psixoprofilaktikanın, tibbi etika və tibbi deontolgiyanın psixoloji əsasları**<br>**Plan:**<br>**1.**Psixoterapiyanın psixoloji əsasları<br>**2.**Tibbi deontologiya<br>**3.**Psixoterapevtik metodlar<br>**Mənbə: (1,2,4,5,6)** | 2 | |
| | **Cəmi:** | **30 s.** | |
| | **Seminar** | | |
| 1 | Klinik psixologiyanın bir elm kimi formalaşması. Strukturu və əsas vəzifələri | 2 | |
| 2 | Duyğu, qavrayış və diqqət pozuntularının patopsixoloji səciyyəsi | 2 | |
| 3 | Hafizə, intellekt və təfəkkür pozuntularının patopsixoloji səciyyəsi | 2 | |
| 4 | Emosional-iradi proseslərin pozulmalarının patopsixoloji səciyyəsi | 2 | |
| 5 | Meyl, yuxu və düşüncə pozuntularının patopsixoloji səciyyəsi | 2 | |
| 6 | Şəxsiyyət pozuntularının patopsixoloji səciyyəsi. Deprüssiya | 2 | |
| 7 | Kliniki müsahibələr və onlarin aparilmasina verilən tələblər | 2 | |
| 8 | Psixoterapiyanın, psixoprofilaktikanın, tibbi etika və tibbi deontolgiyanın psixoloji əsasları | 1 | |
| | **Cəmi:** | **15s.** | |

**XI. Fənn üzrə tələblər, tapşırıqlar:** Tələbə aşağıdakıları bilməli və bacarmalıdır:

- Klinik psixologiyanın strukturu barədə məlumat;
- Klinik psixologiyanın inkişaf tarixi, əsas tədqiqat metodlar;
- Korreksiya və psixoterapiya üsulları;
- Psixi fəaliyyətin patopsixoloji və neyropsixoloji pozulması halları;
- Psixi inkişaf pozulmalarının tiplərini, duyğu, qavrayış, nitq, hafizə, təfəkkür, yuxu, meyl, düşüncə və şəxsiyyət pozuntularını;

  Kursun sonunda tələbələr :

  - Xəstəliyin öyrənilməsində və sağlamlığın möhkəmləndirilməsində psixikanın rolunu;
  - Müxtəlif xəstəliklərin yaranmasında və gedişində psixi proseslərin rolu və yerini;
  - Xəstəliyin müalicəsi prosesində (müxtəlif dərmanlara olan reaksiyalar) psixikanın dəyişməsini;
  - Müxtəlif xəstəliklər zamanı psixi pozulmaları və onların aradan qaldırılması və ya korreksiyası metodlarını;

- Psixoterapiya və psixokorreksiya içinin psixiatriyada, neyrocərrahiyyədə, anomal uşaqların və somatik xəstəliklərin bərpasında tətbiqini;
- Beyinin lokal zədələri zamanı ali psixi funksiyaların pozulmasını;
- Beyinin müxtəlif patoloji hallarında psixi fəaliyyətin pozulmalarını və s. öyrənir.

**XII. Fənnin tədrisi üçün nəzərdə tutulan tədris və öyrənmə metodları:**

- mühazirə, seminar, praktiki tapşırıqlar;
- təqdimat və müzakirə;
- debat;
- müstəqil iş/araşdırma

**XIII. Fənn üzrə təlim nəticələri**

**FTN 1.** Klinik psixologiya sahəsinə olan maraqları və məqsədləri aydınlaşdırmağı bacarır (buraya elmin yaranması, tarixi, strukturu, inkişaf qanunauyğunluqları daxildir)

**FTN 2.** Psixi fəaliyyətin pozulmasının patopsixoloji tətbiqi və ayrı - ayrı psixi prosesləri, şəxsiyyət pozuntularını öyrənir.

**FTN 3.** Qeyri – tipik (anormal) davranışın yaranmasının bioloji, psixoloji, psixoterapevtik səbəblərini başa düşmək və mümkün müdaxilə istiqamətlərini müqayisə edir.

**FTN 4.** Neyropsixoloji diaqnostika və sindrom analizinə əsaslanaraq beynin lokal strukturlarının zədəsi zamanı psixi fəaliyyətin pozulmasını müəyyən etmək və təhlil edir.

**FTN 5.** Klinik psixologiyanın yaş problerini müəyyən edir.

**FTN 6.** Uşaqlarda anomal psixi inkişafın qanunauyğunluqlarını təhlil edir.

**FTN 7.** Qoca və ahılların psixikasında müşahidə olunan morfoloji və psixoloji dəyişiklikləri öyrənmək və təhlil edir.

**FTN 8.** Psixoterapiya, psixodiaqnostika, psixoprofilaktika, etika və deontologiyanın səbəblərini başa düşür və təhlil edir

**XIV. Tələbələrin fənn haqqında ümumi biliklərinin öyrənilməsi:**

**XV. Fənn üzrə kollokvium sualları:**

**I kollokvium sualları:**

1. Klinik psixologiyanın yaranma tarixi və tədqiqat metodları
2. Klinik psixologiyanın inkişaf qanunauyğunluqları
3. Kliniki müayinə metodları və əsas vəzifələri
4. Neyropsixologiya və patopsixologiya klinik psixologiyanın bir bölməsi kimi
5. Sağlamlıq və xəstəliyin psixoloji aspektləri psixologiyanın əsas nəzəri problemləri kimi
6. Psixologiyada norma anlayışı
7. Xəstəliyin psixologiyası
8. Duyğu pozuntuları
9. Qavrayış pozuntuları
10. Diqqətin pozuntuları

**II kollokvium sualları**

1. Müxtəlif sinir-psixi xəstəliklər zamanı hafizə pozuntuları və rast gəlindiyi əsas xəstəliklər
2. Anadangəlmə və qazanılmış intellekt pozuntuları
3. İntellekt pozuntularının təsnifatı
4. Təfəkkür pozulmalarının əsas simptomları
5. Təfəkkürün formaca pozuntuları
6. Təfəkkürün məzmunca pozuntuları
7. Emosional pozuntuların formaları
8. İradənin pozulması
9. Hərəkət sferasının pozulması

10. Meyllərin pozuntusu: qidalanma meylinin pozuntusu, yuxu meylinin pozuntuları, İmpulsiv meyll pozuntusu.

## XVI. İmtahan sualları:

1. Klinik psixologiyanın bir elm sahəsi kimi yaranma tarixi
2. Klinik psixologiyanın tədqiqat metodları
3. Klinik psixologiyanın digər elmlər ilə qarşılıqlı əlaqəsi və inkişaf qanunauyğunluqları
4. Kliniki müayinə metodları
5. Klinik psixologiyanın strukturu və onun əsas vəzifələri
6. Neyropsixologiya və patopsixologiya
7. Sağlamlıq və xəstəliyin psixoloji aspektləri psixologiyanın əsas nəzəri problemləri kimi
8. Psixologiyada norma anlayışı
9. Xəstəliyin psixologiyası
10. Duyğu və qavrayış pozuntuları
11. Diqqətin pozuntuları
12. Müxtəlif sinir-psixi xəstəliklər zamanı hafizə pozuntuları
13. İntellekt pozuntularının təsnifatı
14. Təfəkkür pozulmaları və rast gəlinən əsas xəstəliklər
15. Klinikada rast gəlinən emosiya pozuntuları
16. İradə və onun pozulması
17. Hərəkət sferasına aid pozuntular
18. Meyl pozuntularının formaları
19. Qidalanma meylinin pozulması
20. Yuxu meylinin pozuntusu
21. İmpulsiv meyllərin pozulmaları
22. Düşüncə pozuntularının rast gəlindiyi xəstəliklər
23. Amensiya düşüncənin dərin pozuntusu kimi
24. Şəxsiyyətin dəyişməsi sindromları və onların klinikası
25. Psixopatiyalar
26. Şizofreniya zamanı şəxsiyyət pozuntuları
27. Nevrozlar psixogen xəstəlik kimi
28. Depresiya psixi xəstəlik kimi və depresiyanın formaları
29. Depresiyanı xarakterizə edən əsas əlamətlər və insan həyatında rolu
30. Aqressiv davranış problemi və aqressiyanın profilaktikası, idarə olunması
31. Psixi sağlamlıq anlayışı
32. Şəxsiyyətin psixi sağlamlığının məruz qaldığı təsirlər
33. Cəmiyyətin psixi sağlamlığa göstərdiyi təsirinin nəticələri
34. Uşaqlarda anomal psixi inkişaf
35. Ahıl yaş dövrünün və qocalığın tibbi-psixoloji xüsusiyyətləri
36. Gerontologiyanın öyrəndiyi əsas problemlər
37. Kliniki müsahibə klinik psixoloqun iş metodlarından biri kimi
38. Klinik müsahibəyə verilən tələblər
39. Klinik müsahibə zamanı yaranan terapevtik münasibətlər
40. Uşaq və yeniyetmələrlə kliniki müsahibələrin aparılması
41. Klinik müsahibə zamanı meydana çıxan çətinliklər
42. Psixoterapiyanın psixoloji əsasları

43. Psixoterapevtik metodlar
44. Tibbi etika haqqında anlayış və onun başlıca tələbləri
45. Tibbi deontologiya nədir? ətraflı izah edin.

*„ Klinik psixologiya" fənninin sillabus 6001021 "Təhsildə sosial-psixoloji xidmət" ixtisasının təhsil proqramı, tədris planı və fənn proqramı əsasında tərtib edilmişdir. Pedaqogika, psixologiya və incəsənət kafedrasının 13 fevral 2026-cı il tarixli iclasında təsdiq olunmuşdur (Protokol №06).*

Fənn müəllimi: dos. L. Ə.Verdiyeva

Kafedra müdiri: dos. A.X.Əliyev